**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA SAĞLAMLIQ TURİZMİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

İxtisas: 5312.01 - Sahə iqtisadiyyatı
Elm sahəsi: 53- İqtisad elmləri

**İddiaçı: Anar Dostəli oğlu Abdullayev**

Fəlsəfə doktoru
elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Rüfət Məmməd oğlu Kasumov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Firuzə Qaraxan qızı Abbasova**

iqtisad üzrə fəlsəfə doktoru
**Ramil Teyyub oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

________________________

Dissertasiya Şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

________________________

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

________________________

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son dövrdə insan sağlamlığının qorunması dünya ictimaiyyətinin qarşısında ən mühüm məsələlərdən biri kimi durur. Sivilizasiyanın inkişafında yeni faktorların ortaya çıxması - elmi və texnoloji inkişaf, istehsalın avtomatlaşdırılması, urbanizasiya və qloballaşmanın geniş vüsət alması, planetin ekoloji vəziyyətində baş verən dəyişmələr - sağlamlığın qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsini qaçılmaz etmişdir.

Həmçinin demoqrafik problemin dünyanın bir çox ölkələri üçün ən aktual problemlərdən olması, müasir insanın hər gün mübarizə etdiyi yeni, daha təhlükəli xəstəliklərin meydana çıxması əhalinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi zərurəti yaratmışdır.

Ölkəmizdə də bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir. Əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də sağlamlıq turizminin inkişaf etdirilməsidir. Bu məqsədlə aparılan ardıcıl tədbirlərdən 2022-ci ildə ölkə başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ni göstərmək olar. Bu Strategiyanın prioritet istiqamətlərindən biri məhz ixtisaslaşmış turizm sektorunun inkişaf etdirilməsidir.

Ölkəmizdə həm təbii resurs potensialının mövcud olması, həm də bu resurslardan istifadə etmək üçün çox saylı sanatoriya, tibb ocaqlarının olması, eləcə də bu sahənin ölkəmiz üçün ənənəvi sahə kimi tarixi köklərə malik olması sağlamlıq turizminin müasir tələblərə uyğun fəaliyyətinin təşkil edilməsi istiqamətində görüləcək işlərin əhəmiyyətini artırır.

Onu da qeyd etmək lazımdır ki, sağlamlıq və kurort turizm sahələrinin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulması və yaradılması, onun inkişafı və beynəlxalq turizm ailəsinə qovuşması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi bir tərəfdən əhalinin sağlamlığının bərpası kimi aktual

məsələnin həllini şərtləndirirsə, digər tərəfdən ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

Belə ki, XX əsrdən sağlamlıq turizminin transmilli miqyas halını almasına bir tərəfdən gəlirlərini artırmaqdan ötrü turizm agentliklərinin öz xidmətlərinin coğrafiyasının genişləndirməsi, digər tərəfdən isə bu fəaliyyət növünün cəlbediciliyi, potensial rentabelliliyi və xarici investisiya axınının güclü olması təsir göstərir. Sağlamlıq turizminin son on il ərzində sürətlə böyüməsi həm dövlət, həm də özəl sektorların diqqətini cəlb etmişdir.

Son illərin statistika və marketinq araşdırmaları göstərir ki, müalicə və sağlamlıqların bərpasını təmin etmək məqsədi ilə Azərbaycana gəlmək və ölkəmizlə daha yaxından tanış olmaq istəyən xarici qonaqların sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. Həmçinin, Azərbaycanın Ümumdünya Turizm Təşkilatına qəbul edilməsi, ölkəmizin sosial-iqtisadi konsepsiyasında turizmin iqtisadiyyatın vacib sahələrindən biri hesab edilməsi, turizm sahəsində dövlət siyasətinin formalaşması, Azərbaycanın Avropa və Asiyanın kəsişdiyi nəqliyyat dəhlizində yerləşməsi burada güclü turizm potensialının olmasını əks etdirir.

Ölkədə müalicə-sağlamlıq turizmi sahəsində problemlərin hər tərəfli öyrənilərək tədqiq edilməsi bu sahədə həyata keçiriləcək müvafiq işlərin səmərəliliyini yüksəldilməsi baxımından gələcək inkişaf hədəflərinin müəyyənləşdirməsi baxımından zəruridir. Məhz bu səbəbdən sağlamlıq turizminin həm nəzəri–metodoloji aspektlərinin öyrənilməsi, bu aspektlər əsasında baxılan sahənin ölkənin iqtisadi artımında rolunun müəyyənləşdirilməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılmasındakı əhəmiyətini kompleks şəkildə araşdırılmasının vacibliyini vurğulayır. Bütün bu qeyd edilənlər tədqiqat işinin vacib bir problem olduğunu diqtə edir.

Azərbaycanda sağlamlıq turizmi problemləri ilə bağlı sovetlər dönəmində ardıcıl və məqsədyönlü işlər həyata keçirilməsinə baxmayaraq, müstəqilliyin ilk illərində bu sahə demək olar ki, tamamilə unudulmuş, yalnız son bir neçə ildə bu problemin həll edilməsinə diqqət artmışdır. Son dövrlərdə Azərbaycanda sağlamlıq turizminin nəzəri-metodoloji əsasları,

milli turizmin həyata keçirilməsində dövlətin rolu, hüquqi bazası, maliyyə məsələlərinin bir çox aspektlərini A.Q.Əsgərov, A.D.Aslanov, X.M.Nadirov, M.M.Hüseynov, F.M.Hüseynov, A.A.Salmanov, A.N.Həsənov, G.X.Səmədova, F.Q.Abbasova, S.T.Yeganlı, A.D.Eyyubov, N.T.Əfəndiyeva, S.H.Abasova, Ç.M.Abbasov, B.Ə.Bilalov, Ə.Q.Əlirzayev, A.M.Əsədov, F.İ.Qurbanov, E.C.İmanov, H.B.Soltanova, Ş.H.Hüseynova və b. tədqiq etmiş və bu problemin müxtəlif istiqamətlərində elmi əsərlər nəşr olunmuşdur.

Türkiyə Respublikası sağlamlıq turizmi sahəsində ciddi irəliləyiş edərək, dünyada özünəməxsus yer tutmaqla, ciddi pay sahibi olmuşdur. Yüksək standartlara cavab verən, ən sürətli tibbi xidmətlər təklif etməklə dünyada tanınan bir destinasiya halına gəlmişdir. Türkiyədə bu sahədə ciddi elmi tədqiqatlar aparılmaqla ölkədə bu sahənin inkişafına xüsusi töhfə verən alimlərdən S.Kaya, H.Yıldırım, S.Karsavuran, Ö.Özer, D.Aydın, C.Constantinides, C.Mike, C.Yılmaz, A.Genç və A.Lanyi, H.Özkurt, C.Aktepe, Ü.Altunkaya və sair alimlərin adını qeyd etmək olar.

Xarici ölkə alimlərindən B.Hans, L.Dwyer, C.Kim, M.Enright, J.Newton, De Keyser, N.Vanhove, E.Johnson, K.Mihalic, P.Hassan, R.Crouch, T. Long, C.Nijkamp, И.Т. Балабанов və b. tərəfindən turizimin, xüsusilə sağlamlıq turizminin inkişaf etdirilməsindən bəhs edən tədqiqatlar aparmışlar.

Qeyd etdiyimiz müəlliflərin və digər aparılan tədqiqatların və ya elmi araşdırmaların nəticələrini yüksək qiymətləndirməklə, yanaşı, həmin araşdırmalarda turizm-rekreasiya potensialı ayrı-ayrı istiqamətlər üzrə tədqiq olunmasına baxmayaraq, sağlamlıq turizminin təşkili, rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi Azərbaycan iqtisadiyyatına verə biləcəyi töhfələrə dair elmi cəhətdən əsaslandırılmış tədqiqat işləri aparılmışdır. Bütün bu göstərilənlər tədqiq olunan dissertasiya mövzusunun seçilməsinə və qarşıya qoyulmuş məqsədə nail olmaq üçün uyğun vəzifələrinin müəyyənləşdirilməsinə əsas verir.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasında formalaşmaqda olan sağlamlıq turizm sahəsi götürülmüşdür.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikasında sağlamlıq turizm potensialının səmərəli istifadəsinin mümkünlüyünün təhlili və qiymətləndirilməsidir.

**Tədqiqat işinin əsas məqsədi** respublika ərazisində olan müalicə-sanatoriya turizm müəssisələr şəbəkəsinin və təbii sərvətlərin təhlilinin aparılması əsasında respublikada sağlamlıq turizminin mövcud vəziyyətinin qiymətləndirilməsi və rəqabət qabiliyyətli inkişaf perspektivinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanmasıdır. Qeyd edilən məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələri müəyyən edilmişdir:

- Sağlamlıq turizminin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi;
- Sağlamlıq turizminin inkişafında xarici ölkələrin təcrübələrinin öyrənilməsi;
- Azərbaycanda sağlamlıq turizminin mövcud vəziyyətinin tədqiqi;
- Sağlamlıq turizminin inkişafına təsir edən amillərin və əsas təbii ehtiyatların təhlili;
- Azərbaycanda sağlamlıq turizminin inkişafına təsir edən amillərin təhlili;
- Azərbaycanda sağlamlıq turizminin perspektiv inkişaf istiqamətləri.

**Tədqiqat metodları.** Tədqiqat işində elmi abstraksiya, analiz və sintez, müqayisəli, iqtisadi-statistik təhlil, induksiya və deduksiya, modelləşdirmə (ekonometrik təhlil) kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

1. Elmi yanaşma prinsipini əsas tutaraq, turizm sferasında fəaliyyətin təşkilində obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalı, atılan hər bir addım müəyyən elmi əsaslara söykənməlidir. Yalnız bu halda, uzunmüddətli və uğurlu fəaliyyət qurmaq mümkündür.

2. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da sağlamlıq turizmindən hər il milyonlarla dollar vəsait əldə etmək olar. Bu sahədə ölkəmizin potensialı yüksəkdir və müəyyən irəliləyişlər də

əldə edilmişdir. Qazanılan nailiyyətlər ölkəmizə, həmin sahədə dünya bazarında rəqabət qabiliyyətini artırmağa imkan verəcək.

3. Rəqabətqabiliyyətliliyin yüksəldilməsi və rəqabət gücünün ölçülməsində tətbiq edilən metod və modellərin, həmçinin rəqabətlilik indeksi üzrə hesablamaların qiymətləndirilməsi nəticəsində sağlamlıq turizminin mövcud vəziyyətini müəyyən etmək və inkişaf etdirilməsinə nail olmaq mümkündür.

4. Müasir bazar iqtisadiyyatı şəraitində sağlamlıq turizminin inkişaf etdiyi ölkələr və onların təcrübəsindən istifadə istiqamətləri müəyyən olunmuşdur. Sağlamlıq turizminin inkişaf etdiyi ölkələrin içərisində Türkiyə, Malaziya, Hindistan, Tayland, səyahət turizmində Yaponiya, Taciqistan, Vyetnam, İsrail, Cənubi Koreya, Misir, Hindistan, Meksika, Çad**,** Albaniya rəqabətdə üstünlük təşkil edir.

5. Azərbaycan sağlamlıq turizminin inkişafına görə dünyanın 136 olkəsi arasında "Səyahət və Turizm Rəqabət İndeksi"-də reytinq cədvəlində 71-ci yerdə qərarlaşmışdır. Əsas təbii ehtiyatların, xüsusən dünyada alternativi olmayan naftalan müalicəvi neftinin, malik olduğumuz kurort-sanatoriya mərkəzlərimizin sayının çoxluğu və yerləşmə mövqeyi, təbii-coğrafi mühitimiz, bu sahənin rəqabətqabiliyyətli olmasına imkan verir.

6. Sağlamlıq turizminin inkişafına təkan verən motivasiya amilinin ətraflı izahı, sorğu, Azərbaycanda rəqabətə davamlı perspektiv inkişaf istiqamətlərinin qiymətləndirilməsi üçün hazırlanmış GZİT (SWOT) təhlilinin nəticəsi bu sahənin yaxın gələcəkdə daha da inkişaf edəcəyinə əsas verir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycanda sağlamlıq turizminin bazar iqtisadiyyatının formalaşdığı şəraitdə rolu və istiqamətləri kompleks şəkildə təhlil edilib**,** qiymətləndirilmişdir. Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardır:

- Azərbaycanda ilk dəfə sağlamlıq turizminin inkişaf səviyyəsi kompleks şəkildə tədqiq edilmişdir;
- ARDSK-nin statistik məlumatlarına əsasən xətti reqresiya modelində işgüzar (İT), əyləncə, istirahət (İET), müalicə

(ST) və digər məqsədlər (DTM) üçün gəlmiş turistlərin qeyri-neft ümumi daxili məhsuluna (QNÜDM) təsirlərini qiymətləndirməyə imkan verən asılılıq qurulmuşdur;

- Sarafan marketinqin tibbi məqsədlər üçün səfərlər planlaşdıran turistlərin seçiminə təsirinin ekonometrik asılılığı qurulmuşdur;
- Azərbaycanın potensial resursları üçün strategiyalar hazırlamaq üçün SWOT təhlili aparılmış və TOWS matrisi hazırlanmışdır.
- Sağlamlıq turizminin inkişaf etdirilməsi mexanizmlərinin fəaliyyətinə dair problemlər aşkarlanmış və onların təkmilləşdirməsi üçün elmi əsaslandırılmış təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri və metodoloji bazasını bu sahədə müvafiq tədqiqatlarından əldə edilən nəzəri baxışlar və metodoloji yanaşmalar, sağlamlıq turizmi sahəsində nailiyyətləri olan ölkələrin təcrübələri, Azərbaycan Respublikasında qəbul olunmuş müvafiq normativ-hüquqi aktlar və dövlət proqramları təşkil edir.Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun əsas müddəaları, nəticələri, irəli sürülən təklif və tövsiyələr Azərbaycanda sağlamlıq turizmi ilə məşğul olmaq üçün turizm məhsulu yaratmaq istəyən sahibkarlar, tur agentlikləri, regional turizm idarələri, mövcud kurort mərkəzləri, turizm sahəsində tədqiqat işi aparmaq istəyən tədqiqatçılar və ümumiyyətlə turizm sahəsi ilə məşğul olmaq istəyən bütün qurumlar tərəfindən istifadə oluna bilər.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik nəşrləri, İqtisadiyyat Nazirliyi, Mədəniyyət Nazirliyinin, Turizm Agentliyinin rəsmi məlumatları, Ümumdünya səhiyyə Təşkilatı və Beynəlxalq Turizm Təşkilatının, Avrostatın və ayrı-ayrı ölkələrə məxsus tədqiqat mərkəzlərinin hesabatları, elmi-metodiki nəşrləri tədqiqatın informasiya bazasını formalaşdırmağa imkan vermişdir

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, irəli sürülən metodoloji və əməli xarakterli təkliflər, tövsiyələr üç beynəlxalq konfransda məruzə edilmiş və materiallar toplu şəkildə çap olunmuşdur. Onlardan Azərbaycanda sağlamlıq turizminin rəqabətqabiliyyətliliyinin xarakterik xüsusiyyətləri (Mingəçevir, 6-7 dekabr 2019-cu il); Sıgnıfıcant features of the competıtıveness of health tourısm ın Azerbaıjan (Biznes universiteti, 30 aprel - 01 may 2020-ci il); Factors ınfluencıng the development of health tourısm and ıts perspectıve development dırectıons // Вопросы преобразования экономических взглядов в XXI веке: время перемен LXXXV Международная научно-практическая конференция (Казан, 27 июня 2020 года) misal göstərmək olar. Dissertasiyanın nəticələri müxtəlif elmi və iqtisadi jurnallarda, həmçinin elmi əsərlər toplusunda çap edilmişdir ki, bunlardan biri xaricdə ixtisaslaşdırılmış və indekləşdirilmiş nəşrlərin siyahısına daxildir.

Tədqiqatın nəticələri və formalaşdırılan tövsiyələr "ADN Travel" MMC- ə təqdim edilmiş və həmin müəssisə bu tədqiqat işinin nəticələrini əhəmiyyətli saymış və gələcək fəaliyyətlərində praktiki istifadəyə qərar vermişdir (Arayış № 177, 4 may 2018-ci il).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 12380 işarə, I fəsil 11402 işarə, II fəsil 58669 işarə, III fəsil 450001 işarə, nəticə və təkliflər 12366 işarə, 156 adda istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr, dissertasiyanın ümumi həcmi 146 səhifədir. Cədvəllər, qrafiklər, ədəbiyyat siyahısı istisna olmaqla 249166 işarədir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I FƏSİL. SAĞLAMLIQ TURİZM VƏ ONUN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ**

1.1. Sağlamlıq turizminin mahiyyəti, tarixi inkişaf mərhələləri və ölkələrin sosial-iqtisadi inkişafına təsirlərinin nəzəri əsasları.

1.2. Sağlamlıq turizminin rəqabətqabiliyyətliliyinin ölçülməsi metodologiyası.

1.3. Sağlamlıq turizminin inkişaf etdirilməsi sahəsində xarici ölkələrin təcrübələrinin öyrənilməsi.

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ RƏQABƏTQABİLİLİYƏTLİLİYİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ**

2.1. Azərbaycanda sağlamlıq turizminin rəqabətqabililiyətliliyinin xarakterik xüsusiyyətləri.

2.2. Azərbaycanda sağlamlıq turizminin mövcud vəziyyətinin tədqiqi.

2.3. Sağlamlıq turizminin əsas təbii ehtiyatları və onun inkişafına təsir edən amillərin qiymətləndirilməsi.

**III FƏSİL. AZƏRBAYCANDA SAĞLAMLIQ TURİZMİNİN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI İMKANLARI.**

3.1. Azərbaycanda sağlamlıq turizminin inkişaf etdirilməsində motivasiya amilinin təsirinin qiymətləndirilməsi.

3.2. Azərbaycanda sağlamlıq turizminin rəqabət üstünlüyü sahəsinə çevrilməsi imkanları.

3.3. Azərbaycanda sağlamlıq turizminin perspektiv inkişaf istiqamətləri.

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

**İXTİSARLAR**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**Müddəa 1. Elmi yanaşma prinsipini əsas tutaraq, turizm sferasında fəaliyyətin təşkilində obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalı, atılan hər bir addım müəyyən elmi əsaslara söykənməlidir. Yalnız bu halda, uzunmüddətli və uğurlu fəaliyyət qurmaq mümkündür.**

Dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən sahələrindən olan, turizm sektoru XXI əsrdə sürətli dövriyyə, yüksək mənfəətlilik və s. baxımdan iqtisadi inkişaf perspektivlərinin fenomeni hesab olunmağa başlamışdır. Məhz bu dövdrən başlayaraq, turizm ümumi xidmətlər sektorunda əsas sahə olub, dünya üzrə xidmətlər ixracında 30 faiz paya malikdir. Xidmət sahələrinin inkişafı xüsusi bacarıq və baş verən dəyişikliklərə operativ reaksiya, çevik uyğunlaşmaq tələb edir.

Turizmin intensivliyindən asılı olmayaraq bu sahə həm sosial-iqtisadi, həm də ekoloji və s. kimi sahələrlə qarşılıqlı təsirə malikdir. Belə ki, baxılan ölkələrdə dayanıqlı inkişafın təmin edilməsi nəticəsində həmin bölgədə turist axının dinamikasında dəyişikliklər yaradır ki, bu da həmin bölgənin turizm sahəsində daha çox gəlir əldə etməsini təmin edir. Bu sahədən daxil olan əldə olunan mənfəət isə region üzrə məhsul buraxılışının həcminin artmasında və regionun inkişafının təmin edilməsi üçün əsas kapital rolunda çıxış etdiyi üçün iqtisadi mahiyyəti baxımından da çox böyük əhəmiyyəti vardır.

Nəzəri yanaşmalara əsasən turizm işinin səmrəli təşkilini aşağıdakı prinsiplərə uyğun qruplaşdırmaq olar:

- Elmi yanaşma;
- Sistemli yanaşma;
- Kompleks yanaşma;
- Qənaətçilik prinsipi;
- Optimallıq;
- İqtisadi səmərəlilik.

Sistemli yanaşma prinsipinin mahiyyəti turizm xidmətlərinin təşkili zamanı, bu sahənin normal fəaliyyətinin təşkili üçün zəruri

olan infrastrukturlarına bir sistem şəklində baxılmasından ibarətdir.

Kompleks yanaşma prinsipinə görə turizm sferasında xidmətlərin təşkilində texniki-texnoloji, təşkilati və sosial-iqtisadi amillərə bir kompleks şəklində yanaşılması daha məqsədəuyğundur. Qənaətçilik prinsipinə görə turizm sferasında xidmətlərin təşkilində material-texniki, enerji, təbii, əmək və maliyyə pesurslarından maksimum qənaətlə istifadə edilməsi zəruridir.

Optimallıq prinsipinə görə turizm sferasında xidmətlərin təşkilində çox variantlılıq, qəbul ediləcək qərarların müxtəlifliyini və çoxluğunu nəzərə alaraq, optimal variant seçilməlidir. Bu halda təklif edilən variantlar işərisində yerli şəraiti, turistlərin zövq və tələbatını, ekoloji durumu və s. daha ətraflı şəkildə nəzərə alan variant ən optimal hesab edilir.

İqtisadi səmərəlilik prinsipi qəbul ediləcək sosial-iqtisad, əməli idarəetmə və təşkilati, habelə əlaqələndirmə-tənzimləmə qərarlarının iqtisadi səmərəliliyinin nəzərə alınmasını tələb edir. Bazar münasibətləri şəraitində, turizmin xidmət sahələrinin inkişafı və onun ölkənin sosial-iqtisadi inkişafına olan təsirinin öyrənilməsi əsasında, turizm sferasında fəaliyyətin təşkil edilməsinin qiymətləndirilməsində qəbul ediləcək bütün qərarlarda başlıca meyarlardan biri iqtisadi səmərəli olmasını zəruri edir.

**Müddəa 2. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da sağlamlıq turizmindən hər il milyonlarla dollar vəsait əldə etmək olar. Bu sahədə ölkəmizin potensialı yüksəkdir və müəyyən irəliləyişlər də əldə edilmişdir. Qazanılan nailiyyətlər ölkəmizə, həmin sahədə dünya bazarında rəqabət qabiliyyətini artırmağa imkan verəcək.**

Sağlamlıq turizminə dair ilkin inkişaf mərhələsi kimi Şumerlərin dörd min il əvvəl hovuz məbədlərinə səyahət etmələri, isti bulaqlar ətrafında səhiyyə kompleksi inşa etmələrinə dair məlumatlar mövcuddur. Tunc dövründən (e.ə. 2000) mövcud olub, hazırkı vaxtda qədər qorunan İsveçrənin St. Moritz adlanan təpələrində yerləşən dəmir və digər müalicəvi əhəmiyyətə malik

elementlərlə zəngin olan mineral qaynaqlardan istifadəni sağlamlıq turizminin davam edən inkişaf mərhələsi kimi göstərmək olar.

Hazırda dünyada digər turizm seqmentləri ilə müqayisədə sağlamlıq turizmi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişafın nəticəsi olaraq dünyanın 50-dən çox ölkəsi dövlət siyasəti səviyyəsində tibbi turizmin inkişafına iddia edirlər.

Sağlamlıq Turizmi XX əsrdə ABŞ və Avropa artıq ticarət və sənaye mərkəzlər olmaqla, dünyanın səhiyyə mərkəzlərinə çevrilərək, 1933-ci ildə Amerika və 1958-ci ildə Avropa Sağlamlıq Təşkilatları yaradılmışdır. Qlobal tibbi turizm bazarının təhlili göstərir ki, 2016-cı ildə istehlak edilən xidmətlərin həcmi 46 milyard ABŞ dolları təşkil edib və ekspertlərin fikrincə, 2017-ci ildən 2023- orta illik artım tempi 15% -ə çatacaq və 2023-cü ildə 165 milyard dollara çatacağı gözlənilir.

Sağlamlıq turizminin inkişaf mərhələrinə nəzər saldıqda aydın olur ki, bu növ xidmətlərdən istifadə də ən başlıca məqsədləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Daha keyfiyyətli və daha qısa zamanda xidmət almaq;
- Yüksək səhiyyə texnologiyalarından istifadə;
- Sağlamlıq xidməti xərclərini azaltmaq;
- Müalicə olmaqla yanaşı gəzinti və mədəniyyət mərkəzlərini ziyarət etmək;
- Müalicədən sonrakı reablitasiyanı daha uyğun iqlim mühitində reallaşdırmaq və s;

Ümumiyətlə, dünya təcrübəsində olduğu kimi ölkəmizdə də sağlamlıq turizmini - termal turizm, tibbi turizm, SPA (SalusPer Aquam)-Wellness və yaşlı və qüsurlu insanların reablitasiyası kimi qruplaşdırmaqla təniﬂəşdirmək olar. Bu kimi təsniﬂəşdirməni isə aşağıdakı cədvəldən daha aydın görmək olar.

**Cədvəl 1**

**Sağlamlıq turizminin strukturu**

| Sağlamlığın qorunması və səyahət xidmətləri | Müalicə xidmətlər | Reablitasiya xidmətləri |
|---|---|---|
| -SPA<br>-Yaşam tərzi/sağlam tətil<br>-Çimərlik turizmi<br>-Kənd turizmi<br>-Eko turizm<br>-İstirahət mərkəzləri<br>-Bitkilərlə müalicə<br>-Sağlamlığın bərpası | -Effektli cərrahi əməliyyat (passiyentin istəyi əsasında)<br>-Plastik cərrahiyə<br>-Orqan transplantasiyası<br>-Ürək və damar xəstəlikləri xidməti<br>-Göz cərrahiyəsi<br>-Diaqnostik xidmətlər | -diyaliz<br>-himayəçilik proqramları<br>-yaşlılara himayə proqramları |

**Mənbə :** cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi təsnifləşdirmə zamanı spa, sağlam tətil, çimərlik turizmi kimi istirahətlər-sağlamlığın qorunması və səyahət xidmətləri kimi, müxtəlif cərrahi və diaqnostik xidmətlərin göstərilməsi müalicə turizmi və diyaliz və müxtəlif növ himayədarlı xidmətləri isə reablitasiya turizminə aid edilmişdir.

Sağlamlıq turizminin inkişaf mərhələsinə nəzər saldıqda, səyahət xidmətləri kimi, müxtəlif cərrahi və diaqnostik xidmətlərin, himayədarlı xidmətləri növünə, onun strukturuna və turizm sektoruna təsir edən amillər təsnifləşdirilərək, təklif edilmişdir. Bu xidmət növlərinə daha çox ehtiyac yaranacağı proqnozlaşdırılır.

**Müddəa 3. Rəqabətqabiliyyətliliyin yüksəldilməsi və rəqabət gücünün ölçülməsində tətbiq edilən metod və modellərin, həmçinin rəqabətlilik indeksi üzrə hesablamaların qiymətləndirilməsi nəticəsində sağlamlıq turizminin mövcud vəziyyətini müəyyən etmək və inkişaf etdirilməsinə nail olmaq mümkündür.**

Digər ölkələrlə müqayisədə, sağlamlıq turizmi sahəsində rəqabət üstünlüyünü müəyyənləşdirmək, qiymətləndirmənin aparılması zamanı razılaşdırılmış mövqelərə uyğun əməkdaşlıq işinə kömək etməyə imkan verir. Məhz bu baxımdan, müasir dövrdə turizm sektorunda rəqabət mövqeyini müəyyənləşdirmək ən aktual məsələlərdən hesab olunur. Təxminən 30 ildir turizm sahəsində rəqabətçi üstünlüklərinə təsir edə bilən amillərin ölçülməsi və qiymətləndirməsi istiqamətində bir çox işlər görülməsinə baxmayarq, bu sahədə, bir çox problemlər mövcuddur.

Ölkələr üzrə turizm sahəsində rəqabət gücünü müəyyənləşdirməyə imkan verən yanaşmalardan biri İƏİT-dir. İƏİT üzvləri rəqabətqabiliyyətinin düzgün müəyyən edilməsini həyata keçiriləcək bütün tədbir və planları turizm siyasətçiləri və sahibkarları üçün əsas məsələ kimi qəbul edirlər. İƏİT terminoloji lüğətində qlobal ticarətdə rəqabətqabiliyyətlilik terminin izahı əsasən "ölkənin dünya bazarında öz məhsullarını satışa təklif edərkən əlverişlilik mövqeyini müəyyənləşdirən ölçü meyarı kimi göstərilmişdir". Beləliklə, bu təşəbbüs çərçivəsində irəliləyiş daha sürətli aparıla və ölkənin maraqları irəli sürülə bilər.

Sağlamlıq turizminin rəqabət gücünün izah edilməsi üçün bir sıra tədqiqat modellərindən istifadə edilir. Bu tədqiqatlardan ən əhəmiyyətli işlərdən biri, Crouch və Ritkinin işləridir. Bu işin məqsədi, təyinatlı rəqabətin fərqləndirici xüsusiyyətlərinə uyğun olan müqayisəli üstünlüklərə və rəqabət qabiliyyətli nəzəriyyələrə əsaslanan konseptual modelin inkişaf etdirilməsidir. Sonrakı illərdə Dwyer və Kim (2003) başqa bir təyinatlı rəqabət modelini hazırlamışdır. Bu yazarların inkişaf etdirmiş olduğu model, milli rəqabət və firma rəqabət nəzəriyyələrini nəzərə alan bir dünyagörüşünə malikdir. Bir təyinatlı rəqabət modelini yaratmaq üçün edilən işlərdən biri də digər bir Dupeyras (2013) sədri olan İƏİT turizm vahidinin müdiri olaraq qurulan bir komissiya tərəfindən edilən bir işdir. İƏİT-nin bu işinin məqsədi ölkələrin rəqabətqabiliyyətini qiymətləndirmək üçün ümumi çərçivədə tətbiq oluna biləcək bir sıra göstəricilər müəyyən etməkdir.

Sağlamlıq turizminin inkişaf etdirilməsi üçün turizm rəqabətliliyinin ölçülməsi və qiymətləndirilməsi üzrə ən son

tədqiqat Dünya İqtisadi Forumu (WEF) tərəfindən 2007-ci ildə ilk dəfə olaraq hazırlanmış, lakin 2015-ci ildə ən son yenilənmə ilə hazırlanmış Səyahət və Turizm Rəqabətlilik İndeksi (TRİ) modelidir. Bu model TRİ dörd əsas amilin (1-7 miqyaslı) subfaktor indikatorlarının dəyərləri əsasında hesablanır; subfaktor dəyərləri əvvəlcə qeyri-ağırlıqlı orta hesabla müəyyən edilir. Daha sonra əsas amil dəyərləri sub-amil dəyərlərinin qeyri-ağırlıqlı ortalamasını alaraq əldə edilr. Daha sonra TRİ, dörd əsas amil dəyərinin ağırlıqlı ortalaması müəyyən edilir.

Bu indeksin tədqiqi 141 ölkənin turizm və səyahət sektoru üzrə statistika və Ümumdünya İqtisadi Forumu ilə işləyən müvafiq ölkələrin nümayəndələri ilə aparılan sorğulara əsaslanır. Bu məlumatlar və anketlər ümumi olaraq 4 əsas qrup, 14 alt qrup və bu alt qrupların 84 göstəricisi əsasında qurulmuşdur.

**Müddəa 4. Müasir bazar iqtisadiyyatı şəraitində sağlamlıq turizminin inkişaf etdiyi ölkələr və onların təcrübəsindən istifadə istiqamətləri müəyyən olunmuşdur. Sağlamlıq turizminin inkişaf etdiyi ölkələrin içərisində Türkiyə, Malaziya, Hindistan, Tayland, səyahət turizmində Yaponiya, Taciqistan, Vyetnam, İsrail, Cənubi Koreya, Misir, Hindistan, Meksika, Çad, Albaniya rəqabətdə üstünlük təşkil edir.**

XXI əsrdə sürətlə inkişaf edən turizm sektorunda, turizm sənayesinin ÜDM-ə böyük təsiri vardır.İqtisadiyyatın inkişafında turizm sahəsinə qoyulan investisiyaların yüksək gəlir gətirdiyini, işsizlik məsələsinin həllində əhəmiyyətli rol oynadığını nəzərə alaraq, turizm xidmətinin inkişafı aktual məsələlətsən hesab olunur. Məhz, bir xidmət sahəsi kimi turizm daha çox cəmiyyətin mənəvi qidasının təmin edilməsi baxımında çox cazibədarlığı ilə digər xidmət sahələrindən fərqlənir. Turizm Azərbaycanın iqtisadi inkişafında mühüm əhəmiyyətə malik aparıcı sahələrdən biridir.

Turizm bir ölkə və onun xalqı üçün iqtisadiyyat mənbəyi kimi ən mühüm sektordur. Sosial-mədəni yüksəliş bir millətin xarici ölkələrdə imicini yüksəldə bilər. Hazırda regional iqtisadiyyat dövründə turizm sektorunun inkişafı bir bölgənin

inkişafı üçün daha vacib olur. Yerli hökumət ya potensial təbii resurs, ya da hər bir regionun inkişaf vasitəsi kimi turizm sektoru da daxil olmaqla, hər bir regiona məxsus potensial insan resursunu araşdırmağa təşviq edilir.

Sağlamlığa aparan yol uzun və çətin ola bilsə də, turizmdən əldə edilən iqtisadi faydaların miqyası səyahətə və turizmə investisiya qoymağı məqsədəuyğun edir. Turizm sahəsində rəqabətqabiliyyətli mühiti xarakterizə edən əsas amillərindən biri sağlamlığın təmin edilməsi, digəri səhiyyə sistemidir. Məlumdur ki, səhiyyə sektorunun effektiv fəaliyyəti turizmin inkişafının təməlini təşkil edir. Ölkələr siyasi iğtişaşlardan sonra turizm sektorlarını yeniləmək üçün bir sıra tədbirlər görə bilər.

Əgər 2020-ci ildə 400 milyon nəfərin turizm xidmətlərindən istifadə etdiyi halda 2021-ci ildə bu gösrərici 415 milyon nəfərə çatmışdır. Bununla belə, UNWTO-nun ilkin hesablamalarına görə, beynəlxalq turist gəlişləri (bir gecəlik ziyarətçilər) hələ də pandemiyadan əvvəlki 2019-cu ilə nisbətən 73% aşağı olmuşdur. Bu, beynəlxalq gəlişlərin 73% azaldığı 2020-ci ildə turizm üçün rekord ən aşağı göstəricidir.[1]

Turistlərin sayının azalması bu sahədən əldə edilən gəlirə də öz mənfi təsirini göstərmişdir. 2021-ci ildə turizmin iqtisadi töhfəsi 2020-ci ildəki müvafiq göstəricidə 0.3 trilyon ABŞ dollarından çox olmaqla, 1,9 trilyon ABŞ dolları səviyyəsinə çatmasına baxmayaraq hələ də pandemiyadan əvvəlki dəyərindən 1.6 trilyon ABŞ dollar aşağıdır.

2021-ci ildə beynəlxalq turizmdən əldə edilən ixrac gəlirləri təxminən 700 milyard ABŞ dollara bərabər olmuşdur ki, bu da səfər başına daha yüksək xərclərə görə 2020-ci ilə nisbətən kiçik bir irəliləyişdir, lakin 2019-cu ildə qeydə alınan müvafiq göstəricidən təxminən 60 faiz azdır.

Hər gəliş üçün orta gəlirlərin 2020-ci ildəki 1300 ABŞ dollarından 2021-ci ildə təxminən 1500 ABŞ dollarına çatmışdır. Bu, fərq yığılmış qənaətlər və daha uzun qalma müddətləri,

[1] https://www.unwto.org/news/tourism-grows-4-in-2021-but-remains-far-below-pre-pandemic-levels.

həmçinin nəqliyyat və yaşayış qiymətlərinin yüksəlməsi ilə bağlıdır.[2]

Con Konelin müasir tibb turizmi tədqiqatlarına əsasən "tibbi turizm tibbi yardım almaq məqsədi ilə yaşayış ölkəsindən kənara səyahət prosesi kimi müəyyən edilə bilər".[3] Tibbi turizmin populyarlığının artması siyasətçilərin, tədqiqatçıların və medianın diqqətini cəlb edib. Başlanğıcda, bu termin xəstələrin vətənlərində mövcud olmayan müalicələr üçün az inkişaf etmiş ölkələrdən inkişaf etmiş ölkələrə səyahətinə istinad edirdi.[4]

**Cədvəl 2**

**JCI Sertifikatlı tibbi müəssisələrin sayı**

| | Azərbaycan | Türkiyə | Malaziya | Hindistan | Tayland |
|---|---|---|---|---|---|
| Xəstəxana sayı | 2 | 42 | 10 | 19 | 32 |
| Sağlamlıq sertifikatlar ının sayı | 2 | 50 | 13 | 32 | 40 |

**Mənbə:**www.mtqua.org/medical-tourism- certification/ download- medical-tourism certification/ (JCI, 2020).

Tibb turizmi tibb və tibb müəssisələrində xəstəxanalarda və klinikalarda xidmət verən biyomedikal bir sahədir. Qeyd etmək istərdik ki, dünyada ən geniş yayılmış tibbi turizm akkreditasiya quruluşu olan JCI sertifikatı ilə tibbi turizm xidmətləri göstərən təşkilatlardır. Müqayisə edilən ölkələr arasında ən çox JCI sertifikatı olan ölkə Türkiyədir.

---

[2]https://innovation.uteca.edu.az/yuklemeler/innovation/no1-16%20Verdiyev%20N.pdf : [Electronic resource].- N.T.Verdiyev, C.İ.Məmmədov. Covid-19 pandemiyasinin dünya və milli turizmə təsiri, post-pandemiya dövründə turizm sektorunun vəziyyəti // İnnovasiyalı iqtisadiyyat və menecment. – Bakı: ATU, - 2022, №1.

[3] Crouch, G. I. Modelling Destination Competitiveness: a survey and analysis of the impact of competitiveness attributes. Gold Coast. - Queensland: Sustainable Tourism CRC, 2011. - 450p.: [Electronic resource]. Uhttps://sustain.pata.org/wp-ntent/uploads/2014/12/Crouch_modelDestnComp-v2.pdf

[4] http://www.e-qanun.az /Turizm haqqında qanun, 1999.

Müasir bazar iqtisadiyyatı şəraitində sağlamlıq turizminin inkişaf etdiyi ölkələrin içərisində Türkiyə, Malaziya, Hindistan Tayland, səyahət turuizmdə Yaponiya, Taciqstan, Vyetnam, Israil Cənubi Koreya, Misir, Hindistan, Meksika, Cad, Albaniya rəqabətdə üstünlük təşkil edir.

**Müddəa 5. Azərbaycan sağlamlıq turizminin inkişafına görə dünyanın 136 olkəsi arasında "Səyahət və Turizm Rəqabət İndeksi"-də reytinq cədvəlində 71-ci yerdə qərarlaşmışdır. Əsas təbii ehtiyatların potensialı, xüsusən dünyada alternativi olmayan naftalan müalicəvi neftinin, malik olduğumuz kurort-sanatoriya mərkəzlərimizin sayının çoxluğu və yerləşmə mövqeyi, təbii-coğrafi mühitimiz, bu sahənin rəqabətqabiliyyətli olmasına imkan verir.**

Azərbaycanda alternativ turizm növlərinin inkişafında ən prioritet istiqamət məhz sağlamlıq turizmidir. Digər turizm növlərinin müddəti qısa olduğu halda, sağlamlıq turizminin günləri 7, 14 və 21 gün olmaqla müəyyənləşdirilir. Sağlamlıq turizminin digər turizm növlərindən fərqləndirən əsas cəhət 365 gün fəaliyyət göstərə bilməsidir. Ümumilikdə, Azərbaycan ərazisində 1500-dən artıq mineral və termal su mənbələri, müalicəvi əhəmiyyətə malik olan 4 palçıq vulkanı və 1 əsas neft mənbəyi vardır. Belə ki, ölkəmizdə turizmin inkişaf üçün görülən tədbirlərdən biri kimi ölkə prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2009-2018-ci illər üçün Azərbaycanda kurortların inkişafı üzrə Dövlət Proqramı" və Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsini göstərmək olar.

Təkcə sanatoriyalarda olan çarpayıların sayı 2017-ci ilin statistik məlumatlarına görə 5.6 min ədəddən artıqdır. Onda bu çarpayılardan istifadə əmsalının çox cüzi olduğunu qeyd edə bilərik. Belə ki, bu çarpayıların 80 faizdən istifədə olunarsa 365 günün yalınız 35 günü ərzində istifadə olunduğunun şahidi olarıq.

**Cədvəl 3**

**Sanatoriya-kurort müəssisələri, istirahət evləri və istirahət bazaları (ilin əvvəlinə)**

| | 2014 | 2020 | 2021 | 2021-ci ilin 2014-cü ilə müqayisədə, faizlə | 2021-ci ilin 2014-cü ilə müqayisədə, faizlə |
|---|---|---|---|---|---|
| Sanatoriyaların, istirahət müəssisələrinin və istirahət bazaların sayı, cəmi (1-2 günlük daxil edilmədən) | 72 | 55 | 52 | -27,8 | -7,1 |
| onlarda çarpayıların(yerlərin) sayı | 10419 | 8469 | 8146 | -21,8 | -4,7 |
| Sanatoriyaların sayı | 32 | 28 | 28 | -12,5 | 0,0 |
| onlarda çarpayıların sayı | 5829 | 5 266 | 5266 | -9,7 | 0,0 |
| Sanatoriyaların ümumi sayından uşaq sanatoriyalarının sayı | 14 | 12 | 12 | -14,3 | 0,0 |
| onlarda çarpayıların sayı | 1030 | 860 | 860 | -16,5 | 0,0 |
| Sağlamlıq mərkəzlərinin sayı | 5 | 4 | 4 | -20,0 | 0,0 |
| onlarda yerlərin sayı | 707 | 562 | 562 | -20,5 | 0,0 |
| İstirahət evlərinin, profilaktoriyaların və pansionatların sayı | 19 | 10 | 9 | -52,6 | -18,2 |
| onlarda yerlərin sayı | 2146 | 1273 | 1113 | -48,1 | -18,4 |
| İstirahət bazaları və digər istirahət müəssisələrinin sayı | 16 | 13 | 11 | -31,3 | -15,4 |
| onlarda yerlərin sayı | 1 737 | 1 368 | 1 205 | -30,6 | -11,9 |

**Mənbə:** cədvəl tərtibatında ARDSK-nın statistik göstəricilərindən istifadə edilmişdir. “Azərbaycanda turizm” 2023.

## Sosioloji Sorğu

Ölkəmizdə sağlamlığın qorunması və bərpasına xidmət edən turizm obyektlərinin mövcud vəziyyəti və orada xidmətin

keyfiyyətini, eləcə də turistlərin görmək istədikləri yenilikləri müəyyənləşdirmək məqsədi ilə 2017-ci ildə tərəfimizdən müxtəlif bölgələri əhatə etməklə turistlər arasında sosialoji sorğu həyata keçirilmişdir. Bu sorğuda yüz nəfər iştirak edib. Eyni zamanda tibbi və sağlamlıq turizminin yerli əhalinin həyatına, maddi və mənəvi fəaliyyətinə, dəyərlər sisteminə, sosial davranış və maraqlarına təsirini təhlil etmək üçün sağlamlıq və bərpa mərkəzləri bölgəsinin sakinləri üçün xüsusi bir sorğu hazırladıq.

Sorğuda iştirak edənlərin 70% -i qadınlar və 30% -i isə kişilər təşkil edir.Tədqiqatın nəticələrinə görə, respondentlərin 44% -i xarici kurortlarda istirahət etmək istəyirdilər lakin 27% bunu evdə keçirir; 20% sanatoriya, internat evlərinə və istirahət evlərinə, 9% -i isə bağ və kənd sahələrinə səyahət edir.

Sosioloji sorğunun göstərdi ki, respondentlərin 49% -i ölkə və xarici medialarda aktiv reklama ehtiyacı olduğuna inanır; 34% orta dərəcədə reklamla təmin olunduğunu qeyd etdi;

17% krortun reklama ehtiyacı olmadığını qeyd edərək, "bu, əlavə pul sərfidir".

**Şəkil 1**

**Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış**
**“Səyahət və Turizm Rəqabət İndeksi”ndə ölkəmizin reytinqi**




**Mənbə:** şəkil müəllif tərəfindən tərtib edilmişdir.

Əhalinin 81% -nin fikrincə, regionda əyləncəli infrastruktur obyektlərindən yalnız kafelər və restoranlar fəaliyyət

göstərir, ticarət effektiv inkişaf edir; 10% -i müasir tibb mərkəzlərinin olmasını qeyd edir.

Dünya İqtisadi Forumu tərəfindən toplanılaraq hazırlanmış "Səyahət və Turizm Rəqabət İndeksi"ndə göstərilmiş məlumatlara əsasən qeyd edə bilərik ki, ölkəmizin reytinqi 2015-ci illə müqayisədə 2019-cu ildə 13 pillə yüksəlmişdir. Belə ki, turizmin inkişafında sağlamlıq və gigyenik qaydalarına əməl olunmanın xüsusi çəkisi 6.1 faizə bərabər olmuş və bu göstərici isə ölkəmizin 136 ölkə arasında reytinqdə 37-ci pilləyə yüksəlməyə imkan vermişdir.

**Cədvəl 4**

**Səyahət və turizmin sahəsində rəqabətqabliliyətlilik səviyyəsinə görə 2019-cu ildə ən çox inkişaf etmiş ölkələr**

| Ölkələr | 2019-cu ildə reytinqdə yeri | 2015-ci ilə nisbətən göstəricinin dəyişməsi (%) | Reytiqdə yerdəyişmə |
|---|---|---|---|
| Yaponiya | 4 | 6,18 | +5 |
| Azərbaycan | 71 | 5,98 | +13 |
| Taciqstan | 107 | 5,01 | +12 |
| Vyetnam | 67 | 4,8 | +8 |
| Israil | 61 | 4,79 | +11 |
| Cənubi Koreya | 19 | 4,33 | +10 |
| Misir | 74 | 4,32 | +9 |
| Hindistan | 40 | 3,86 | +12 |
| Meksika | 22 | 3,86 | +8 |
| Cad | 135 | 3,81 | +6 |
| Albaniya | 98 | 3,8 | +8 |

**Mənbə:** cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi, turizm sahəsində rəqabət qabiliyətinin yüksəlməsinə görə ölkəmiz dünyada bu sahədə ən yüksək inkişaf tempinə nail olmuşdur. Bu sahədə rəqabət qabliliyətinin yüksəlməsində isə sağlamlığın qorunmasına yönləndrilmiş

tədbirlər üstünlük təşkil etmişdir. Qeyd edək ki, bu göstərici üzrə dünyada ilk yeri Almaniya tutmuşdur. Keçmiş sovetlər birliyiyi ölkələrindən isə Litva, Rusiya və Qazaxstan bu sıralamada müvafiq olaraq 2, 5 və 6-cı yerdə olmaqla ön sıralarda qərarlaşmışdır.

Ölkəmizin sağlamlıq turizminin inkişaf istiqamətləri ilə yanaşı, onun inkişafına təsir edən amillərin xarakterik xüsusiyyətləri təhlil edilmişdir. Azərbaycan sağlamlıq turizminin inkişafına görə dünyanın 136 olkəsi arasında "Səyahət və Turizm Rəqabət İndeksi"-də reytinq cədvəlində 71 yerdə qərarlaşmışdır (Dünya İqtisadi Forumu tərəfindən keçirilən sorğu əsasında hazırlanmış) .

**Müddəa 6. Sağlamlıq turizminin inkişafına təkan verən motivasiya amilinin ətraflı izahı, sorğu, Azərbaycanda rəqabətə davamlı perspektiv inkişaf istiqamətlərinin qiymətləndirilməsi üçün hazırlanmış GZİT (SWOT) təhlilinin nəticəsi bu sahənin yaxın gələcəkdə daha da inkişaf edəcəyinə əsas verir.**

Turizm ölkənin sosial-iqtisadi inkişafının hərəkətverici qüvvəsi hesab olunur. Turizm sayəsində ölkədə yeni iş yerləri və müəssisələr açılır.

Hazırkı tədqiqatda motivasiyalı motivləri nəzərə alaraq, dörd motivasiya faktoru - asanlıq, ölkə bilik və maarifləndirmə, qənaət, təhlükəsizlik və təhlükəsizlik potensialı daxil edilmişdir.

Motivasiya etmə faktorlarının ölçülmələri turizm və tibbi turizmə aid bir çox ölkələrdə aparılmış müvafiq qiymətləndirmə metodologiyalarına uyğun həyta keçirilmişdir. Bu ölkələrə Hindistan, Malaziya, Türkiyə, Yunanıstan, Sinqapur və s. aid etmək olar. Bu işə daxil olan faktorlar - Azərbaycan haqqında lazımi bilgilərin olması, bu ölkəni seçən responentin maddi baxımdan daha çox qənaət etdiyi, ictimai asayışın sabitliyi və təhlükəsizliyi əsas idi.

Azərbaycanda rəqabətə davamlı sağlamlıq turizminin prespektiv inkişaf istiqamətləri, nəqliyyat sistemi və Azərbaycanın immiqrasiya siyasəti baxımından ölçülmüşdür. Bu tədqiqatda

məlumat bazası üçün öz-özünə tətbiq edilən sorğu anketlərindən istifadə edilmişdir. Pilot test anketi, sorğuların dəqiq və müvafiq olduğunu müəyyən etdi. Sorğuda iştirak edən respondentlərin 32.4% -i qadın, 67.6% -i kişi idi. Respondentlərin əksəriyyəti 46-dan 55-ə (44,8%) qədər yaş qrupunda və evli idi (69,5%).

Ümumilikdə sorğuda iştirak etmiş xarici ölkə vətəndaşlarının turistlərin Azərbaycana qarşı gələcək davranış niyətləri müəyyən edən indeks 0.612-yə bərabər olmuşdur. Yəni ölkəni təkrar seçmək və tanıdıqlarına məsləhət sorğuda iştirak edənlərin 62,2 faizi Azərbaycandan aldıqları xidmətdən razı qalmışdır.

Bütün bu əvvəlki fəsildə aparılan araşdırmaları ümumiləşdirərək sağlamlıq turizmdə rəqabət üstünlüklərini müəyyənləşdirməyə imkan verən SWOT matrisini tərtib edək. Strateji Yol Xəritəsinə əsasən mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək. Sənədə əsasən, bu sektor üzrə uzunmüddətli perspektivə nail olmaq məqsədilə 2020-ci ilədək olan dövr üçün ölkə üzrə turizm sektorunda dörd əsas hədəf müəyyənləşdirilmişdir.

Apardığımız təhlildən belə qənaətə gələ bilərik ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti yeni bir mərhələyə qədəm qoymuşdur. Bu sahədə Strateji inkişaf Proqramı çərçivəsində dövlətin apardığı siyasət turizmin inkişafına güclü təkan göstərir. Dövlətin də turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Təsadüfi deyil ki, dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur.

## Nəticə və Təkliflər

Dissertasiya işinin əsas nəticələrini və təklifləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Nəticə**

1. Regionlarda turizm agentlikləri pis inkişaf edir.
2. Turizm infrastrukturu lazımi səviyyədə deyil.

3. Turist xidmətlərinin o cümlədən, müalicəvi-turizmin qiymətləri Rusiyada, Türkiyədə və Gürcüstandakı səviyyədən yüksəkdir.

4. Treninq-kursları zəif təşkil edilir.

5. Bu sahədə ixtisaslı kadr çatışmamazlığı var.

6. Malik olduğumuz təbii-coğrafi resurs potensialımızdan az istifadə edirik.

7. Müasir dövrdə müalicəvi turizmin inkişafında, sanatoriya-kurort şəbəkələrində pasientlərə göstərilən xidmətlərin keyfiyyəti qənaətbəxş deyildir və müasir dövrün tələblərinə cavab vermir.

8. Kurort turizm obyektlərimizin əksəriyyətinin maarifləndirilməsi zəif aparılır.

9. Təbii ehtiyatlarla müqayisədə turist biznesi çox zəif inkişaf etmiş və daxili bazarın böyük potensialı istifadə edilməmiş qalır.

10. Sahibkarlara vergi və digər əsaslı güzəştlər edilmir.

**Təkliflər**

1. Daha keyfiyyətli və beynəlxalq standartlara uyğun sağlamlıq müəssisələri tikilməlidir.

2. Xarici və yerli şirkətlərin inşa etdiyi yeni mehmanxanalarda kütləvi sayda turistlərin yerləşdirilməsi üçün qiymətlər rəqabətə uyğun olaraq tənzimlənməlidir.

3. Yerli və beynəlxalq konfranslarda və elmi mərkəzlərdə kadr hazırlığına və mövcud kadrların səviyyəsinin artırılmasına diqqət artırılmalıdır.

4. Regionlarda turizmin inkişafı üçün milli inkişaf proqramı çərçivəsində investisiyalar qoyulması tələb olunur. Bu tələbə uyğun yeni investorlar cəlb edib təklifi stimullaşdırmalıyıq.

5. Gələcəkdə rekreasiya müəssisələrinin yerləşdirilməsi, dağətəyi zonalarda əhali arasında şöhrət qazanmış Çuxuryurd, İsti-su, Qızılbulaq, Altı-Ağac və s. kimi mineral suları olan yerlərdə həyata keçirilməlidir.

6. Sağlamlıq xidməti göstərən sanatoriyalar beynəlxalq standartlara uyğun yenidən qurulmalıdır.

7. Sağlamlıq xidməti qəbul edənlərin yaxınları və ya onunla gələn şəxslərin yerləşdirilməsi işlərini həyata keçirmək (səhiyyə

müəsisələrinə yaxın ərazidə turistlər üçün ucuz mehmanxanaların tikintisi).

8. Sağlamlıq xidməti göstərən müəssisələrdə vergilər azaldılmalı və əsaslı güzəştlər edilməlidir.

9. Aeroportda, taksidə və s. yerlərdə turistlərə göstərilən xidmət mədəniyyəti yüksəldilməlidir.

10. Müalicəvi turizm-kurort obyektlərinin sayının artırılması, həmçinin müalicə-turizm obyektlərində pasientlərə göstərilən xidmətlərin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi üçün köklü tədbirlərin görülməsi zərurəti yaranır. Bu halda Türkiyə variantı əsas götürülməlidir.

Yekunda qeyd edək ki, zəngin coğrafi mövqeyə malik ölkəmizdə sağlamlıq turizminin inkişafı üçün hər cür şərait mövcuddur. Azərbaycan Respublikasının vətəndaşları olaraq öz sağlamlığımızın qeydinə qalınmasında ölkəmizdə mövcud olan bütün tibbi və sağlamlıq, rekreasiya mərkəzlərinin xidmətlərindən istifadə edilməsi və daima təbliğatının aparılmasında yaxından iştirak etməliyik.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakl elmi əsərlərində öz əksini tapmışdır:**

1. Milli iqtisadiyyatın formaları və ailə iqtisadiyyatı // Müstəqil Azərbaycan 20 il: Dövlət ailə, qadın və uşaq siyasəti / AR AQUPDK ; AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu “Politologiay və Siyasi Sosiaologiaya” şöbəsi. - Bakı: Nurlar, 2012. - s.254-457.

2. Sağlamlıq turizmi və onun tarixi inkişaf mərhələləri // AMEA Xəbərlər. – 2016, №3, s.62-67.

3. Turizmin inkişafı və bu inkişafa təsir edən amillərin tədqiqi //AMEA Elmi Əsərlər. – Bakı, 2016, s.207-234.

4. Tibbi turizm xidmətinin təşkilatı və inkişafı // AMEA Xəbərləri, 2017, №4, s.60-67.

5. Azərbaycanda sağlamlıq turizminin rəqabətqabiliyyətliliyinə dairmövcud vəziyyət və inkişaf perspektivləri // Strateji təhlil. – 2018, №1-2(23-24), s.469-484.

6. Evaluation of the influence of word-of-mouth marketing on the choice of tourists planning a trip foa medical purposes // Интернаука: Международный научный журнал, Серия «Экономические науки». - Kiev, 2018, №3, с.42-46.

7. Azərbaycanda sağlamlıq turizminin rəqabətqabiliyyətliliyinin xarakterik xüsusiyyətləri // Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar respublıka elmı konfransının materialları 6-7 dekabr 2019-cu il.- Mingəcevir, 2019. – s.388-389.

8. Current state and perspective development trends of health tourism in the republic of Azerbaijan // «Advances in Science and Technology» XXII Международная научно-практическая конференция 31 июля 2019. – Москва: Research and Publishing Center«Actualnots.RF»,2019. – с.154-156.

9. Sıgnıficant features of the competıtıveness of health tourısm ın Azerbaıjan // Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində" : Beynəlxalq elmi-praktik konfransın materialları ( Biznes universiteti, 30 aprel - 01 may 2020-ci il). - Bakı, 2020. – s.445-447.

10. Factors ınfluencıng the development of health tourısm and ıts perspectıve development dırectıons // Консепции современного образования: время перемен : Сб.науч.трудов. – Россия, Казан: ОНТ, 2020. – с.94-99.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il saat $11^{00}$-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ11143, Bakı şəhəri, H.Cavid pr. 115, İqtisadiyyat İnstitutu

e-mail: economicscomaz@gmail.com

Dissertasiya işi ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun www.economics.org.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "_____" __________2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:05.06.2024
Kağızın formatı : A5
Həcm: 34637
Tiraj: 100